Azərbaycan.- 2020.- 24 dekabr. S. 11.

# Xalqın sevimli rəhbəri

**Neçə illər bundan əvvəl Ulu Öndər Heydər Əliyev televiziyada tarixi bir çıxış etdi. Xüsusi qeyd etməyə dəyər ki, o vaxt Ümummilli Lider bu çıxışı edərkən o dərəcədə mütəəssir olmuşdu ki, onu təsvir etmək belə asan deyil.**

Ulu Öndər təəssüf hissi ilə bildirdi ki, bədnam erməni terrorçuları torpaqlarımızın xeyli hissəsini qəsb etsələr də, övladlarımız bu işin öhdəsindən gələcəkdir: bir qarış da olsun torpağımız düşmən əsarətində qalmayacaq. Ümummilli Lider bu fikri o dərəcədə qətiyyətlə dedi ki, uşaqdan-böyüyə hər kəsin qəlbində bir ümid işığı yandı, alovlandı. Mən də qəlbimdə xeyli rahatlıq tapdım. Yaşadığım Ağdam şəhərini, sonra isə ata yurdum Qərvənd kəndini də tərk etməyə məcbur olsam da, Qarabağdan kənara bir addım da atmadım. İllərlə məzuniyyət belə görmədən tibb elmləri üzrə fəlsəfə doktoru Taryel Eyvazovun rəhbərliyi ilə həkimlərimiz gecə-gündüz indiki Ermənistandan olan qaçqınların, Qarabağın məcburi köçkünlərinin tibbi xidmətində olduq. Həkimlərimiz nə qədər əziyyət çəksə də, yorulsa da, Ulu Öndərimizin qətiyyəti daim onlara ruh verir, əziyyəti, yorğunluğu unutdurdular.

O vaxtlar böyük sərkərdəmizin yüksək fikri məndə belə bir inam yaratmışdı ki, nə vaxtsa qələbə bizim olacaq. Möhtərəm Prezident İlham Əliyevin məlum “yeddi şərt” qarşısında tək bircə şərt qoyması xalqımız kimi, mənim də inamımı çox artırdı. Çünki bu qətiyyət elə Ulu Öndərin qətiyyətinin davamıdır.

Şükür ki, yaşımın ixtiyar çağında sonsuz həsrətlə gözlədiyim Zəfər gününü görmək mənə də nəsib oldu. Sevincimizin hədd-hüdudu yoxdur. Çünki bir ömürdə yüz ömrün iztirabını çəkə-çəkə gözlədiyimiz doğma torpağımıza qovuşmaq həsrətinə son qoyuldu. Bu, ölkəmizin dilbər guşəsi Qarabağımızın qələbəsi idi. Təkcə Qarabağınmı?! Yox! Lerikin, Şəkinin, Şirvanın, Bakının da, Gəncənin də, deməli, bütünlüklə Vətənimiz Azərbaycanın qələbəsidir bu!

Təkcə Azərbaycanınmı?! Yox! Böyük sərkərdələrimizin məqsədyönlü qətiyyətləri sayəsində bir müsəlman ölkəsi qələbə çaldı! Bu, təkcə müsəlman qələbəsidirmi?! Yox! Bu, böyük kürsülərdə hazırlanmış iftiraların, yalanların, hər cür fitnəkarlığın üzərindəki qələbədir.

Eşq olsun bu qələbəmizin əsasını düzgün hazırlayıb, sərrast istiqamətləndirən Ali Baş Komandana! Eşq olsun bu möhtəşəm planları həyata keçirən igidlərimizə! Eşq olsun başda böyük sərkərdələrimiz olmaqla, bütün Azərbaycan xalqına!

Möhtərəm sərkərdəmiz İlham Əliyevin həm döyüş texnikası, həm də erməni havadarlarına cavabları çox sərrast, real, hədəfə düzgün hesablanmışdır. Bu düşməni və onun havadarlarını hələ də çaş-baş qoymaqdadır!

İstər bu işlərin hazırlanmasında, istərsə də həyata keçirilməsində, ölkəmizin cahanşümul qələbəsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da əməyi təqdirəlayiqdir. Çətin məqamlarda onun fəaliyyəti Prezidentə təkcə həyat yoldaşı kimi deyil, həm də yenilməz silahdaşı olmasını təsdiqlədi.

Möhtərəm Prezident İlham Əliyev Qələbə sevincini bütün xalqımızla bölüşdürdü: Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla başa vurdu! Böyük sərkərdəmiz uzun illər daim liberallıq edənlərin də dərsini verdi: “Biz BMT-nin qərarlarını yerinə yetirdik!”

Bir qərinəlik iztirablarımızı götürdü üstümüzdən böyük sərkərdəmiz.

Ermənistan ordusu məhv edildi: işğalçı hakimiyyət diz çökdü!

Daha bir unudulmayacaq fakt: üç rayon (Ağdam, Kəlbəcər və Laçın) itki verilmədən boşaldıldı. Bundan da böyük dahilik olardımı?!

***Asif AĞAYEV,***
***Ağdam şəhər sakini,***
***Bərdədə müvəqqəti məskunlaşmış təqaüdçü həkim***